

*Teatrşünas-alim Ədalət Vəliyevin "Teatr sənətimiz: dünən, bu gün, sabah..." kitabı sənət adamları, mütəxəssislər, mədəniyyət və incəsənət xadimləri, KİV nümayəndələri, bütövlükdə bütün oxucular tərəfindən maraqla qarşılanmışdır. Ayrı-ayrı qəzet və jurnallarda verilən çoxsaylı məqalələr də bunu sübut edir. Bu yazılarda kitabın məziyyətlərindən, burada toplanan materialların əhəmiyyətindən bəhs edilir, aktuallığı ilə seçilən cəhətlər önə çəkilir. Maraq doğuracığını nəzərə alaraq həmin məqalələrdən birini diqqətinizə çatdırırıq...*

# SABAHA BOYLANAN ÜMİD

## "Teatr sənətimiz: dünən, bu gün, sabah..." kitabını vərəqləyərkən

***Tanınmış teatrşünas-alim Ədalət Vəliyevin bu yaxınlarda "Elm" nəşriyyatı tərəfindən nəfis şəkildə buraxılmış "Teatr sənətimiz: dünən, bu gün, sabah..." kitabını yenicə oxuyub qurtarmışam. Hələ də burada toplanmış elmi-nəzəri məqalələrin, publisistik yazıların, ayrı-ayrı mətbuat işçiləri ilə teatr sənəti və mədəniyyətimizin üzləşdiyi problemlərlə bağlı aparılan maraqlı mübahisələrin, səmimi söhbətlərin doğurduğu xoş təsirdən tam ayrıla bilməmişəm. Odur ki, "elə əsl məqamıdır" - deyə bir yazı adamı kimi alimə qələm alıb təəssüratımı "Ekspress" qəzetinin dəyərli oxucuları ilə bölüşmək istəyirəm.***

Bəri başdan deyim ki, kitab ürəyimcə oldu. Çoxdan idi ki, oxuduğum əsərlərdən bu dərəcədə zövq almamışdım...

Qeyri-ixtiyari F.Bekonun müdrik kəlamını xatırlayıram: "Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir..."

Sanki bu sözlər haqqında söhbət açdığımız nəşrlə bağlı söylənilib. Bəli, qətiyyətlə demək olar ki, teatr prosesinin səciyyəvi xüsusiyyətlərini, müasir şəraitdə onun vəzifələrini, problem və uğurlarını özündə əks etdirən bu kitab mədəniyyətimizin parlaq gələcəyinə ünvanlanan bir mesajdır. Şübhə yoxdur ki, müəllifin nəzəri və təcrübi düşüncələrini bu sahədə çalışan mütəxəssislər, teatrsevərlər - bütövlükdə bütün teatr xadimləri maraqla qarşılayacaq, nəcib işlərində onlardan maksimum dərəcədə mənfəətlənməyə çalışacaqlar.

Kitab iki bölmədən ibarətdir. Birinci bölmə "Müasir teatr problemləri" adlanır. Burada müəllifin bir-birindən dəyərli 24 elmi məqaləsi toplanmışdır. Onların bir qismi əvvəllər "Mədəni-maarif" jurnalında işıq üzü gördüyündən həmin yazıların ilk oxucusu olduğum üçün xüsusi məmnunluq hissi keçirir, məqalələri təkrar-təkrar yenidən oxuyuram. Nə danım, indi o materiallar mənə daha samballı, daha təsirli, daha problematik görünür.

Müasir teatr sənətinin üzləşdiyi bir sıra problemlərə, çətinliklər, yenilik və uğurlara güzgü tutan müəllif mədəniyyətimizin əsas qollarından olan səhnə tariximizin şərəfli keçmişinin bu günümüzdən keçərək sabaha neçə addımladığını maraqlı faktlar fonunda ustalıqla şərh edir.

Məqalələr yalnız aktuallığı, səlis yazılışı ilə deyil, həm də problemlərə dərindən nüfuz et-

məsi ilə fərqlənir. Bunu materiallara verilmiş uğurlu başlıqlardan da duymaq olur: "Milli teatr: yeni əsrin çağırışları", "Teatr məkanında birləşən dünyamız", "Teatr: böyük məsələlərin kiçik sırası", "Qastrol səfərləri və onların təşkili", "Operanın vüsəti, baletin təravəti", "Qanunlar gerçəkliyi və gerçək qanunlar", "Milli teatr sənətinin təşkilatlanma prosesi", "Azərbaycan milli teatr prosesinin çağdaş təşkilatlanma problemləri teatrşünaslığın aktual problemləri kimi..."

Əslində bu sərlövhələr alimin qarşıya qoyduğu məqsədi və onun açılma metodunu təzahür etdirir. Müəllif sağlam təfəkkürlə, sərbəst və qətiyyətli şəkildə problemlərə aydınlıq gətirir.

Bir balaca haşiyə çıxaraq qeyd edim ki, teatr sənətlərin ən çətini sayıldığı kimi onun nəzəriyyəsi ilə məşğul olan teatr tənqidi də orijinal fikir söyləmək baxımından mürəkkəb sahə hesab edilir. Odur ki, çiyinlərini bu ağır yükün altına verən kəs son dərəcə savadlı, təcrübəli, müstəqil fikirli və teatr sənətinin kamil bilicisi olmalıdır. Bütün bu keyfiyyətləri özündə ləyaqətlə yaşatmasının nəticəsidir ki, Ə.Vəliyev çalışdığı yüksək vəzifədə, kuratoru olduğu sahələrdə qazandığı uğurları bir teatr tənqidçisi kimi eynən burada da davam etdirir.

Həsəd aparılası hafizəsi, qibtə ediləsi dəqiq vaxt bölgüsü, məhsuldar fəaliyyət prinsipi var. Bəzən gördüyü iş o qədər çox olur ki, onun qısa zaman kəsiyində həyata vəsiqə aldığına adam möcüzə kimi baxır.

Saysız-hesabsız nailiyyətlərə aparan bu məziyyətlərin açarını - hər birimizin heyrətinə səbəb olan bu "möcüzə"nin sirrini ilk növbədə Ədalət Vəliyevin tərcümeyi-halında axtarmalıyıq.

1959-cu ildə anadan olub. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. 1980-ci ildən başlayaraq respublikanın aparıcı teatrlarında müxtəlif vəztfələrdə calışıb. Azərbaycan Dövlət Akademik Milli Dram və Azərbaycan Dövlət Rus Dram teatrlarına rəhbərlik edib. Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavinidir.

Respublika Teatr Xadimləri İttifaqı İdarə Heyətinin, Milli Teatrın İnkişafı Fondunun, Mədəniyyət Fondunun, "Mədəniyyət" və "Yaddaş" qəzetlərinin, "Mədəni-maarif" və "İncəsənət" jurnallarının redaksiya heyətinin üzvüdür.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğuldur.

"Bütün bu vəzifələri pillə-pillə adlayan, öz bacarığı, istedadı, çalışqanlığı, tutduğu vəzifəyə və ətraf mühitə, baş verən hadisələrə və insanlara aydın, məsuliyyətli, vicdanlı münasibəti sayəsində hər bir işdə yaxşı nəticələr əldə edə bilib. Teatr sənətini öz varlığına hopdurub, ümumiyyətlə, incəsənətə dərindən bələd olub, özünü teatr sənətində yetkinləşdirib, tanıdıb. Sənət haqqında nüfuzlu söz demək hüququ qazanıb".

Diqqətçəkən odur ki, müəllif digər teatrşünaslardan fərqli olaraq mədəniyyət tariximizin qaynaqlarını daha mükəmməl araşdırmış, teatrların qarşısında duran vəzifələri şərh edərkən onları yeni əsrin tələbləri fövqündə tutmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, sənətşünaslıq doktoru, professor İnqilab Kərimovun təbirincə desək, kitab-toplunun dəyəri yalnız onun janr müxtəlifliyi, forma rəngarəngliyi ilə məhdudlaşmır. Burada çağdaş teatrımızın mənzərəsi aydınlığı və genişliyi ilə göz önündə canlanır. Bu mənzərədə teatr sənətinin həm nəzəri cəhətləri, həm gerçək fəaliyyəti, həm təşkilatlanma və təchizat perspektivi, həm də irili-xırdalı problemləri aydın görünür.

Bu problemləri doğuran səbəblərsə müəllifin göstərdiyi kimi nə birdir, nə beşdir. "Teatr aləmində baş verən hər bir uğursuzluğun, hər bir mənfi təzahürün teatr tariximizin ən dərin qatlarından süzülüb gələn yüzlərlə, minlərlə kökü-kökməcəsi vardır. Bugünkü vəziyyəti tənqid atəşinə tutmaqla yaxın gələcəkdə böyük



müvəffəqiyyətlər qazanılacağına ümid bəsləmək, məncə, yanlış təsəvvürdür. Teatrlarımızın, eləcə də, mədəniyyətimizin ümumi səviyyəsini qaldırmaq üçün, öncə buraxılan səhvləri, yanlışlıqları araşdırmaq, sözün həqiqi mənasında geniş, kompleks şəkildə uzunmüddətli iş planı tutmaq lazımdır. Özü də bu fəaliyyət planı uçulub-dağılmış köhnə binanın yararsız bünövrəsi üstündə yox, təzələnən, daha böyük ağırlıqlar üçün nəzərdə tutulan yeni özül üzərində ucaldılmalıdır..."

16 il əvvəl irəli sürülsə də (Bu fikirlər Ədalət müəllimin 1990-cı il aprelin 6-da "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi "Durğunluq hörümçəyinin torunda" sərlövhəli məqalədə verilmişdir. O zaman müəllif Azərbaycan Dövlət Dram Teatrının sərəncamçı-direktoru vəzifəsində çalışırdı. 1991-ci ilin noyabrında o, Azərbaycan Dövlət Rus Dram Teatrının direktoru və bədii rəhbəri seçiləcək, 1993-cü ilin əvvəlində isə Respublika Mədəniyyət nazirinin müavini təyin ediləcəkdi) müəllifin bu mülahizələri yenə də öz aktuallığını saxlayır. Hərçənd onların müəyyən qisminin reallaşması üçün müvafiq tədbirlər görülmüşdür. Məmnunluq hissilə qeyd etməliyik ki, bu gərəkli işə rəhbərlik edən də başqaları deyil, məhz Ədalət Vəliyevin özü olmuşdur.

Görülən işlər barədə kitabın ikinci hissəsində müfəssəl söhbət açıldığından bəzi məqalələr üzərində dayanmaqla onları sizin müzakirənizə verəcəyik. "Mədəniyyətimizin sabahına inanıram" başlıqlı bu bölmədə Ədalət Vəliyevin ayrı-ayrı vaxtlarda müxtəlif qəzet və jurnallarda çap olunmuş 43 müsahibəsi verilmişdir. Müəllif haqlı olaraq həmin yazıları "müsahibə-mülahizə" adlandırmışdır. Bu da təsadüfi deyildir. Çünki onların hamısı mətbuat işçiləri ilə aparılan sıravi söhbətdən çox canlı polemika, işgüzar dialoq olması ilə fərqlənir. Burada, görüşdən əvvəl suallarını "yüz dəfə o tərəf-bu tərəfə çevirən" jurnalist yalnız onu maraqlandıran sorğuya cavab almır, həm də önündə dayandığı mədəniyyət fədaisindən üzləşdiyimiz problemlərin ağırlığını duyur, uğura aparan yolu öyrənir və teatr xadiminin ictimai-siyasi təfəkkürünün sağlamlığına heyrətini gizlədə bilmir: "Əsl rəhbər bax belə olar! Problemlərlə tanış olmaq və işi irəli aparmaq üçün yerlərə getməkdən yorulmur. Çalışır ki, hər şeyi öz gözü ilə görüb nəticə çıxarsın... İslahat tərəfdarıdır... Çox danışmağı xoşlamır. Konkretliyi sevir. Danışığı səlis və rəvan, söhbəti məntiqlidir. Hazırcavabdır. Obyektivliyini təhlil və təsvirlərindən də duymaq olur. Araşdırmalarında prinsipiallığa söykənir. Yalan və saxtakarlıqla barışa bilmir. Tabeçiliyində olan idarə və müəssisə rəhbərləri ilə işini ciddi münasibət və səmimi işgüzarlıq, yoldaşlıq prinsipləri əsasında qurur. Tələbkar olduğu qədər də qayğıkeşdir..."

***Bütövlükdə kitab müəllifin yalnız ağlı-nı, biliyini və təfəkkürünü deyil, həm də bir dövlət məmuru kimi getdiyi Rusiya, Türkiyə, İran, Çin, Fransa, Ukrayna, Almaniya, Avstriya, BƏƏ, Yaponiya və digər xarici ölkələrin dövlət xadimləri ilə apardığı uğurlu işlərin səviyyəsini, həyata baxışını, bacarığını, vətəndaş mövqeyini, insani keyfiyyətlərini və şəxsiyyətini dövlətimizin və dövlətçiliyimizin inkişaf ritminə uyğun ölçülər çərçivəsində bütün aydınlığı ilə göstərir.***

***Nəşrin teatrsevərlər tərəfindən birmənalı şəkildə maraqla qarşılanacağını nəzərə alaraq müəllifi bir daha ürəkdən təbrik edir, ona gərəkli işlərində uğurlar diləyirik...***

**Yaşar Vəliyev,**
*yazıçı-publisist,*
*"Qızıl qələm", Həsən bəy Zərdabi və Cəlil Məmmədquluzadə adına mükafatların laureatı*

"Ekspress" qəzeti
4 fevral 2006-cı il